# "Ali Baş Komandanlığınızla qazanılan bu Zəfər Azərbaycanla birlikdə bütün türk dünyası üçün qürur və ilham mənbəyi olmuşdur"

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Əziz Qardaşım!

Qədim Azərbaycan torpaqlarının işğalına son qoyan Zəfər Gününün dördüncü ildönümü münasibətilə xalqım adından və şəxsən öz adımdan zati-aliniz başda olmaqla bütün azərbaycanlı qardaş və bacılarıma ən səmimi təbriklərimi çatdırıram.

Ali Baş Komandanlığınızla qazanılan bu Zəfər Azərbaycanla birlikdə bütün türk dünyası üçün qürur və ilham mənbəyi olmuşdur. Ötən il Qarabağda uğurla həyata keçirdiyiniz antiterror əməliyyatı ilə tam nəzarəti təmin etdiyiniz bu qədim torpaqlarda 30 ildən sonra ilk dəfə bu il parlament seçkilərinin keçirilməsi də bizi sevindirmişdir.

Şuşa Bəyannaməsi ilə taclanan, "Bir millət, iki dövlət" şüarı ilə təcəssüm olunan sarsılmaz dostluq və qardaşlıq tellərimizdən aldığımız güclə işğaldan azad edilmiş bölgələrin bərpa və yenidənqurma işlərinə hər cür dəstəyi verməyə hazır olduğumuzu ifadə etmək istəyirəm. Regionumuzda davamlı sülhün, əmin-amanlığın və sabitliyin təmin edilməsi üçün ikitərəfli səviyyədə və beynəlxalq platformalarda sıx əməkdaşlığı, həmrəyliyi və koordinasiyamızı davam etdirəcəyimizə ürəkdən inanıram.

Azadlıq uğrunda şəhid olan qardaşlarıma Uca Allahdan rəhmət diləyir, əziz xatirələrini ehtiramla yad edirəm. Qazilərimizə də minnətdarlığımı ifadə edirəm.

Əziz Qardaşım, fürsətdən istifadə edərək, zati-alinizin can-sağlığı və xoşbəxtliyi ilə Can Azərbaycan xalqının rifahı üçün ən xoş arzularımı bir daha bildirirəm.

Zəfəriniz mübarək və əbədi olsun!

*Rəcəb Tayyib ƏRDOĞAN,*
*Türkiyə Respublikasının Prezidenti*